

Doğma, canım-varlığım qədər sevdiyim Azərbaycanım mənim qibləgahımdır

Qəzet 1921-ci ildən çıxır

# ŞƏRQ qapısı

Təsisçi: Naxçıvan Muxtar Respublikası Ali Məclisi və Nazirlər Kabineti

Sayı: 91 (23.503)

13 iyun 2020-ci il, şənbə

Gündəlik ictimai-siyasi qəzet

www.serqqapisi.az

Qiyməti 20 qəpik


*Tarixin yaddaşına möhürünü vurmuş şəxsiyyətlərin zəngin, şərəfli və mənalı ömür yolunu nəzərdən keçirmək bütöv bir millətin, dövlətin salnaməsini yazmaq qədər çətindir. Ümummilli liderimiz Heydər Əliyev də Azərbaycan xalqının yetirdiyi nadir şəxsiyyətlərdən biri kimi milyonların qəlbində yaşayır. Həyatının mənasını xalqa və dövlətə xidmətdə görən ulu öndərin adı Azərbaycan tarixinə silinməz iz qoymuş böyük şəxsiyyət, fitri istedad sahibi, müdrik dövlət xadimi kimi düşmüşdür. O, Azərbaycanın inkişaf yolunu müəyyənləşdirmiş, milli-mənəvi dəyərlərimizin, müstəqil dövlətçiliyimizin konseptual əsaslarını işləyib hazırlamış, milli ruhun və ideologiyanın yüksəlişinə təkan vermişdir. Azərbaycan xalqının taleyində dönüş anı olan 1993-cü ilin 15 iyunundan ötən hər il ümummilli liderimizin misilsiz xidmətləri daha dərindən dərk olunur. Çünki ulu öndər Heydər Əliyev fərqli siyasi sistemlərdə millətinin qurtuluşuna nail olan dövlət xadimidir.*

# Azərbaycan xalqının QURTULUŞ tarixi



Azərbaycanın XX əsr tarixinin 60-cı illərindən başlayan dövrü Heydər Əliyev şəxsiyyəti, onun böyük quruculuq fəaliyyəti ilə sıx bağlıdır. XX yüzilliyin 60-cı illərinin sonunda dahi şəxsiyyət Heydər Əliyevin doğma xalqa həsr olunmuş ömür yolunda yeni, daha geniş, çoxşaxəli, qaynar fəaliyyət dövrü başlandı. Tarixi inkişafın sonrakı gedişi sübut etdi ki, bugünkü müstəqil Azərbaycan ümummilli liderimiz Heydər Əliyev tərəfindən hələ o zaman qurulmuşdur. 1970-1985-ci illərdə, bütövlükdə respublika ərazisində yüzlərlə zavod, fabrik, istehsalat sahələri yaradılmış, milli iqtisadiyyatın əsası qoyulmuşdu. 213 iri sənaye müəssisəsi işə salınmış, bir çox mühüm istehsal sahələrinə görə Azərbaycan keçmiş ittifaqda aparıcı yerlərdən birini tutmuşdu. 1969-1982-ci illərdə 15 mindən çox azərbaycanlı tələbə SSRİ-nin qabaqcıl ali məktəblərində təhsil almağa göndərilmişdi. Müstəqillik dövründə Azərbaycanın yüksəkixtisaslı mütəxəssislər sarıdan çətinlik çəkməməsi, zəruri sosial-iqtisadi potensial məhz ulu öndərin respublikamıza 1969-1982-ci illərdə rəhbərliyi dövründə göstərdiyi misilsiz dövlətçilik fəaliyyətinin nəticəsidir.

Dahi şəxsiyyət Vətəni və xalqı naminə ən təhlükəli addımları belə, inamla atmışdır. 1987-ci ildə Moskvada olarkən təhdidlərə baxmayaraq, Sovet İKP MK-nın Siyasi Bürosunun üzvlüyündən istefa verərək 20 Yanvar faciəsini törədənləri kəskin ittiham etməklə milli iradə, qətiyyətli və prinsipial mövqe, həqiqi vətənpərvərlik nümayiş etdirmişdir. Bu kəskin bəyanatdan sonra milli liderimizin Moskvada yaşaması mümkün olmadı. O, 1990-cı il iyulun 20-də Bakıya gəldi. Lakin burada – vaxtilə qurub-yaratdığı şəhərdə qalmaq, ağır fəlakət anında xalqı ilə bir yerdə olmaq imkanı verilmədiyindən iki gün sonra iyulun 22-də doğma Naxçıvana qayıtmış və buradan bütün Azərbaycanın qurtuluş mübarizəsinə rəhbərlik etmişdir.

Böyük şəxsiyyət hələ 1990-cı ilin noyabr ayında Naxçıvanda dövlət müstəqilliyinin bərpası istiqamətində tarixi qərarlar qəbul edərək müstəqil dövlətçiliyin əsasını qoymuşdur. Ümummilli liderimizin muxtar respublikamızda yaşayıb fəaliyyət göstərdiyi 1990-1993-cü illər təkcə Naxçıvanda deyil, bütün Azərbaycanda mühüm rol oynamışdır. Bu həmin dövr idi ki, ermənilərin Azərbaycana qarşı təcavüzünün 1988-ci ildə başlanan son mərhələsi coğrafi cəhətdən ana vətəndən ayrı düşmüş Naxçıvanın blokadaya salınmasına səbəb olmuş, nəticədə, 1990-cı ildə ölkəmizin digər əraziləri ilə hava nəqliyyatı istisna olmaqla, bütün kommunikasiya əlaqələri kəsilmiş, Naxçıvan böyük təhlükələr ilə üz-üzə qalmışdı. Belə çətin bir zamanda Naxçıvan Muxtar Respublikasının Ali Məclisi xalqımızın azadlıq məfkurəsinin reallığa çevrilməsi üçün ulu öndərin rəhbərliyi altında tarixi qərarlar qəbul etmişdir. Sovet İttifaqının saxlanılması üçün qanunsuz referendum muxtar respublikada keçirilməmiş, Azərbaycan Xalq Cümhuriyyətinin milli istiqlal rəmzi olan üçrəngli bayrağımız ilk dəfə ümummilli liderin sədrliyi ilə Naxçıvan parlamentində qaldırılmış, Naxçıvan Muxtar Respublikasının adından "Sovet Sosialist" sözləri çıxarılmışdır. Dünya azərbaycanlılarının həmrəyliyinin əsasının qoyulması, blokada şəraitində yaşayan Naxçıvanın işğaldan xilas edilməsi, burada çoxşaxəli iqtisadi islahatların aparılması dahi rəhbər Heydər Əliyevin qətiyyəti və təşəbbüsü nəticəsində mümkün olmuşdu.

Böyük şəxsiyyət çoxşaxəli fəaliyyəti ilə Azərbaycan dövlətçiliyinin Naxçıvan məktəbini yaratmış, muxtar respublikada milli dövlətçiliyin qurulması istiqamətində nəhəng işlər görülmüşdü. Ötən əsrin doxsanıncı illərinin əvvəllərində ümummilli liderin rəhbərliyi ilə Naxçıvan inkişaf edir, cəmiyyət quruculuğu sahəsində qətiyyətli addımlar atılırdı. Azərbaycan xalqı belə cəsarətli, düşünülmüş və məqsədyönlü, ümummilli mənafelərə xidmət edən addımların ölkə miqyasında da atılmasını tələb edirdi. Çünki 1990-1993-cü illərdə Azərbaycanda baş verən hadisələr onu göstərdi ki, ölkəmizin nicatı Heydər Əliyev ideyalarında, Heydər Əliyev yolundadır. Həmin dövrdə Azərbaycan 1991-ci ildə bərpa olunmuş müstəqilliyini itirmək təhlükəsi ilə üz-üzə idi. Ölkəmizdə anarxiya və xaos hökm sürürdü. Xalq Cəbhəsi-Müsavat hakimiyyəti ölkəmizi dərin böhrana sürükləmişdi. Azərbaycan xalqı varlığının, ölkənin bütövlüyünün, yenicə qazanılmış müstəqilliyin qorunub saxlanılmasını istəyirdi. Ancaq mövcud hakimiyyət və onun rəhbərləri buna heç cür qadir deyildi. Ölkədə vətəndaş müharibəsi başlamışdı. 1993-cü il iyunun 4-də Gəncədə qarşıdurma yaşanmış, qardaş qanı tökülmüşdü. Gəncədə baş verən hadisələrə də ilk dəfə iyunun 5-də ulu öndər Heydər Əliyevin rəhbərlik etdiyi Naxçıvan Muxtar Respublikasının Ali Məclisi münasibət bildirmişdi. Azərbaycan real olaraq parçalanmaq təhlükəsi qarşısında qalmışdı.

1992-ci ildə ölkəmiz artıq müstəqil dövlət olsa da, respublikada gedən hakimiyyət çarpışmaları ermənilər tərəfindən Xocalı soyqırımının törədilməsinə şərait yaratmış, Şuşanın və Laçının asanlıqla işğalına səbəb olmuşdur. Bu dövrdə erməni silahlı birləşmələri Naxçıvana qarşı irimiqyaslı hərbi əməliyyatlara başlasa da, Naxçıvanda xalqla rəhbərin vəhdəti düşmənə rəşadətlə sinə gərərək torpaqları qoruyub saxlamağa kömək etmişdir.

Xalqın böyük təkidli tələbi, respublikada yaranmış böhranlı şərait, hakimiyyətsizlik və özbaşınalıq, ölkəmizin müstəqilliyi üçün real təhlükənin yaranması görkəmli dövlət xadimi Heydər Əliyevin Azərbaycana rəhbərliyə qayıtmasını zəruri etmişdi. Tarixə "Milli Qurtuluş Günü" kimi daxil olan 1993-cü ilin 15 iyununda ulu öndər Heydər Əliyev Azərbaycanda yenidən siyasi hakimiyyətə qayıdışı ilə ölkəmizi məhv olmaq təhlükəsindən qurtarmışdır. Azərbaycan parlamentinin iclasındakı çıxışında ulu öndər dövlət müstəqilliyini qorumağı, möhkəmləndirməyi özünün əsas vəzifələrindən biri hesab edərək demişdir: ***"Azərbaycan Respublikasının bugünkü ağır, mürəkkəb və gərgin vəziyyətini tam məsuliyyətlə dərk edirəm. Bu vəzifəni öz üzərimə götürərək öz məsuliyyətimi anlayıram və bunların hamısını rəhbər tutaraq əlimdən gələni edəcəyəm. Azərbaycan Respublikasının dövlət müstəqilliyi müasir tələblərlə, dünyada gedən proseslərlə bağlı olaraq təmin olunmalıdır. Bu sahədə mən çalışacağam və heç kəsin şübhəsi olmasın ki, ömrümün sonrakı hissəsini harada olursa-olsun, yalnız və yalnız Azərbaycan Respublikasının müstəqil dövlət kimi inkişaf etməsinə həsr edəcəyəm".***

15 iyun müstəqil Azərbaycan dövlətinin tarixinə "Milli Qurtuluş Günü" kimi daxil olmuşdur. Azərbaycan Respublikasının Milli Məclisi 1997-ci il 27 iyun tarixli Qərarı ilə dahi şəxsiyyətin ölkə rəhbərliyinə qayıdışı gününü rəsmi olaraq Azərbaycan xalqının Milli Qurtuluş Günü elan etmişdir.

1993-cü il oktyabrın 3-də və 1998-ci il oktyabrın 11-də ölkə Prezidenti seçilən qüdrətli siyasətçi Heydər Əliyev öz siyasi qüvvə və bacarığını Azərbaycanın müstəqilliyinin möhkəmləndirilməsinə, dövlətimizin beynəlxalq aləmin sivilizasiyalı, çağdaş və inkişaf etmiş dövlətləri sırasına çıxmasına, respublikamızın ictimai-siyasi, sosial-iqtisadi və mədəni həyatının çiçəklənməsinə sərf etmişdir. Müdrik rəhbərin uzaqgörən siyasəti nəticəsində ölkədəki özbaşınalıq, anarxiya aradan qaldırıldı, qanunların aliliyinə, hüquqi-demokratik prinsiplərə əsaslanan idarəçilik sistemi yaradıldı, vətəndaş həmrəyliyi bərpa olundu. Görkəmli dövlət xadiminin tarixi xidmətləri sayəsində Azərbaycanda iqtisadi tərəqqiyə geniş rəvac verən qlobal layihələrin gerçəkləşdirilməsinə başlanıldı. Xarici neft şirkətləri ilə "Əsrin müqaviləsi" imzalandı. Ölkəmiz beynəlxalq təşkilatlarda layiqincə təmsil olunmağa başladı, hüquqi-demokratik prinsiplərə əsaslanan Konstitusiya qəbul edildi. Dünya Azərbaycanlılarının qurultayları milli həmrəyliyə nail olmaq amalının Azərbaycanın dövlət siyasətinin tərkib hissəsinə çevrildiyini nümayiş etdirdi. Müstəqil Azərbaycanın sosial, siyasi, iqtisadi və mədəni həyatının bütün sahələrində ciddi, hərtərəfli, möhtəşəm yüksəlişin baş verməsi ulu öndər Heydər Əliyevin fəaliyyətinin saysız-hesabsız bəhrələrindəndir. Bir sözlə, 1993-2003-cü illərdə ulu öndər Heydər Əliyev müstəqilliyimizin əsl xilaskarı, hər bir vətəndaşın böyük qayğıkeşi, hamisi, Azərbaycanın qurucusu kimi öz sağlığında xalqın qəlbində əbədi yer tutdu.

Azərbaycan dövlətini labüd fəlakətlərdən, hərc-mərclikdən xilas edən dahi şəxsiyyət Heydər Əliyev tərəfindən müəyyənləşdirilən inkişaf xəttini hazırda ölkə başçısı cənab İlham Əliyev uğurla davam etdirir. Bunun nəticəsidir ki, Azərbaycan bu gün inkişaf edən dövlətlər sırasında öz layiqli yerini tutub.

Naxçıvan Muxtar Respublikası da Milli Qurtuluşdan başlanan böyük inkişaf yolu keçib. Son illər rayon mərkəzlərindən ucqar dağ kəndlərinədək aparılan genişmiqyaslı quruculuq işləri qədim Naxçıvanın hüsnünü daha da gözəlləşdirib. Həyata keçirilən iqtisadi islahatlar ötən tarixi dövr ərzində muxtar respublikada iqtisadiyyatın dinamik inkişafına təkan verib və əhalinin həyat səviyyəsini əhəmiyyətli dərəcədə yaxşılaşdırıb. Bütün bunların nəticəsi olaraq Azərbaycan Prezidenti cənab İlham Əliyevin ilk sədri olduğu "Caspian European Club"un 2017-2018-ci illər üçün Azərbaycanın iqtisadi regionlarının 18 parametr üzrə hazırlanmış illik investisiya reytinqində Naxçıvan Muxtar Respublikası ən yüksək ümumi bal toplayaraq lider olub. Artıq Naxçıvanda ərzaq, enerji və müdafiə təhlükəsizliyi tam təmin olunub. Bir zamanlar istehsalın əksər sahələrində idxaldan asılı olan muxtar respublika indi ixracatçıya çevrilib.

Azərbaycan Respublikasının Prezidenti cənab İlham Əliyev Naxçıvan Muxtar Respublikasına səfəri zamanı bu qədim yurd yerinin inkişafına yüksək dəyər verərək demişdir: ***"Bizim siyasətimizin mərkəzində Azərbaycan vətəndaşı dayanır. Onun problemlərinin, qayğılarının, bütün sosial məsələlərin həlli üçün bizdə çox güclü iradə, imkanlar var və görülən işlər bizim siyasətimizi əks etdirir. ...Biz bu siyasətin gözəl nəticələrini ölkəmizin hər bir yerində görürük, o cümlədən Naxçıvan Muxtar Respublikasında. Bir daha demək istəyirəm ki, burada aparılan işlər çox yüksək qiymətə layiqdir, çox böyük zəhmət, çox böyük məhəbbət tələb edir. Görürəm ki, bütün işlər böyük məhəbbətlə, böyük zövqlə görülür ki, insanlar üçün yaxşı şərait yaradılsın, Naxçıvan Muxtar Respublikası bundan sonra da uğurla inkişaf etsin".***

Qurtuluşun işığında doğma Naxçıvanımız müasirliyə qovuşub. Müasirləşən şəhərlər, kəndlər, yaradılan infrastruktur Naxçıvanı Azərbaycanın ən gözəl, həm də ən çox turistin üz tutduğu diyarına çevirib. Muxtar respublikada sabitlik hökm sürür, sərhədlərimiz qorunur, torpaqlarımız etibarlı müdafiə olunur. 2018-ci ildə Şərur rayonunun Günnüt kəndi və ətrafındakı mühüm strateji əhəmiyyəti olan yüksəkliklər Azərbaycan Respublikasının Prezidenti, Silahlı Qüvvələrin Ali Baş Komandanı İlham Əliyevin adlandırdığı kimi "Uğurlu Naxçıvan əməliyyatı" nəticəsində işğaldan azad edilib. Bu torpaqlar artıq əkin dövriyyəsinə qatılıb, zəhmətkeş insanlar tərəfindən əkilib. Burada suvarma üçün müasir qurğular yaradılıb.

Muxtar respublikada şəhərlə kənd arasındakı fərq aradan qaldırılıb. Buna səbəb yaradılan müasir yol infrastrukturu, yurd yerlərimizin abadlaşması, ən ucqar kəndlərimizdə belə, əhalinin müasir texnologiyalardan istifadə etməsi olub. Naxçıvanda məşğulluq təmin olunub, yeni xidmət və istehsal sahələrinin yaradılması iş yerlərinin açılmasına səbəb olub, məskunlaşma artıb. Həyata keçirilən uğurlu ekoloji siyasət nəticəsində bu gün diyarımızda yaşıllıqların sahəsi 20 faizə qədər artırılıb. Naxçıvanda dövlət gənclər siyasəti uğurla həyata keçirilir, gənc nəslin təhsil və tərbiyəsi qayğısına qalınır. Bu gün naxçıvanlı gənclər peşəkar mütəxəssis, ən əsası isə Vətənə və dövlətçiliyə bağlı əsl vətəndaş kimi yetişməkdədir. Təbii ki, bunların hamısı Milli Qurtuluş Gününün bəhrələridir.

*Müasir Azərbaycan və onun Naxçıvan Muxtar Respublikası bu gün əldə etdiyi bütün uğurlara görə ulu öndərimizin 1993-cü ildə ali hakimiyyətə qayıdışına, Milli Qurtuluş Gününə borcludur. Naxçıvan Muxtar Respublikası Ali Məclisinin Sədri cənab Vasif Talıbovun dediyi kimi:* ***"Milli Qurtuluş Günü Azərbaycan xalqı üçün, bizim hamımız üçün müqəddəsdir. Ona görə ki, ötən əsrin 90-cı illərində başımızın üstünü almış təhlükənin sovuşmasına, milli dövlətçiliyimizin xilasına və bu gün müstəqil Azərbaycanda sabitlik, əmin-amanlıq şəraitində yaşamağımıza görə Milli Qurtuluş Gününə borcluyuq. Bu bayram bizim üçün bir də ona görə müqəddəsdir ki, o, ulu öndər Heydər Əliyevin adı, siyasi və dövlətçilik fəaliyyəti ilə sıx bağlıdır. Ulu öndərin 1969-cu ildə ölkəmizdə birinci dəfə hakimiyyətə gəlməsi Azərbaycanın dirçəliş və çiçəklənmə dövrü kimi səciyyələnirsə, 1993-cü ildə xalqın təkidli tələbi ilə ikinci dəfə siyasi hakimiyyətə qayıdışı Milli Qurtuluş tariximizin yazılması ilə əlamətdardır. Milli Qurtuluş Günü Azərbaycanın dövlətçilik tarixində mühüm mərhələ təşkil edir".***

**"Şərq qapısı"**

## Milli Qurtuluş Gününə həsr olunmuş tədbir



***Naxçıvan Muxtar Respublikasının Bakı şəhərindəki Daimi Nümayəndəliyi tərəfindən keçirilən onlayn tədbirdə çıxış edən Daimi Nümayəndəliyin rəhbəri Bəxtiyar Əsgərov əvvəlcə kollektivi bayram münasibətilə təbrik edib.***

Nümayəndəliyin rəhbəri Azərbaycanın müstəqil dövlətçilik tarixinə qızıl hərflərlə yazılmış, xalqımızın taleyində müstəsna rol oynayan bu əlamətdar günün tarixi əhəmiyyətindən bəhs edib. Qeyd olunub ki, hər bir xalqın, millətin, ölkənin taleyində elə günlər yaşanır ki, həmin günlər, həqiqətən, o xalqın şanlı tarixinə çevrilir və qərinələrlə, yüz illərlə, nəsildən-nəslə keçərək yaşayır, anılır. 15 İyun – Mill Qurtuluş Günü də məhz belə günlərdən biridir. Ulu öndərin 1969-cu ildə ölkəmizdə birinci dəfə siyasi hakimiyyətə gəlişi tarixdə Azərbaycanın dirçəliş və çiçəklənmə dövrü kimi səciyyələnirsə, 1993-cü ildə xalqımızın təkidli tələbi ilə ikinci dəfə siyasi hakimiyyətə qayıdışı Milli Qurtuluş tariximizin yazılması ilə əlamətdardır.

Bildirilib ki, 1993-cü il iyunun 15-də xalqın təkidli tələbi ilə ölkədə hakimiyyət dəyişikliyi baş verdi. Dünya miqyaslı böyük siyasətçi, ümummilli liderin respublika rəhbərliyinə yenidən qayıdışı siyasi-iqtisadi böhran içində boğulan Azərbaycanı böyük fəlakətlərdən, eyni zamanda müstəqilliyin itirilməsi təhlükəsindən xilas etdi. Həmin il oktyabr ayının 3-də keçirilən Prezident seçkilərində xalqın mütləq əksəriyyəti tərəfindən müstəqil Azərbaycanın Prezidenti seçilən dahi şəxsiyyətin rəhbərliyi altında qısa müddət ərzində Azərbaycanda dövlət quruculuğu prosesinin uğurla aparılması üçün əlverişli şərait yaradıldı.

Müstəqil Azərbaycan Respublikasının Prezident cənab İlham Əliyevin rəhbərliyi ilə son 17 illik qısa zamanda qazandığı tarixi nailiyyətlərdən bəhs edən Bəxtiyar Əsgərov vurğulayıb ki, 1993-cü ilin Azərbaycanı ilə ölkəmizin müasir dövrünü müqayisə etsək, sürətli, böyük inkişaf yolu keçildiyini aydın görərik.

Diqqətə çatdırılıb ki, müasir Azərbaycan və onun Naxçıvan Muxtar Respublikası bu gün əldə etdiyi bütün uğurlara görə ulu öndərimizin 1993-cü ildə Azərbaycanda ali, siyasi hakimiyyətə Qayıdışına, Milli Qurtuluş Gününə borcludur. Bu gün Prezident cənab İlham Əliyevin və muxtar respublika rəhbərinin Heydər Əliyev siyasi kursunu uğurla davam etdirmələri sayəsində müstəqil Azərbaycan Respublikası demokratik dəyərləri, insan hüquq və azadlıqlarına hörməti və hərtərəfli inkişafı ilə bütün dünyada nüfuz sahibinə çevrilib. Azad və firavan ölkəmiz, eləcə də onun əvəzsiz incisi sayılan müasir Naxçıvan Muxtar Respublikası ulu öndər Heydər Əliyevin şah əsəri kimi yaşayır, inkişaf edir, güclənir. Beləliklə, Qurtuluşdan başlanan intibah bu gün də Azərbaycan dövlətinin və xalqının yüksəlişinə xidmət edir. Daimi Nümayəndəliyin rəhbəri çıxışının sonunda əminliyini bildirib ki, Böyük Qayıdışdan Qurtuluşa, Qurtuluşdan Yüksəlişə irəliləyən müstəqil Azərbaycan Ali Baş Komandan İlham Əliyevin rəhbərliyi ilə işğal edilmiş doğma torpaqlarımızın üzərində tam və inamlı qələbəsinin astanasındadır.

Tədbir digər çıxışlarla davam etdirilib.

**AZƏRTAC**

***Naxçıvan şəhərindəki Dövlət Bayrağı Muzeyində Naxçıvan Muxtar Respublikası Ali Məclisinin Sədri yanında Dövlət Qulluğu Məsələləri üzrə Komissiya tərəfindən dövlət orqanlarında vakant dövlət qulluğu vəzifələrinin tutulması üçün keçirilən müsabiqədə müvəffəqiyyət qazanmış dövlət qulluqçularının andiçmə mərasimi olub.***

## Dövlət qulluqçularının andiçmə mərasimi olub



Tədbirdə komissiyanın sədri İsmayıl Qəribli çıxış edərək andiçmənin Milli Qurtuluş Günü ərəfəsində keçirildiyini qeyd edib. Bildirib ki, ölkəmizdə müasir dövlət qulluğu sisteminin formalaşması və inkişafı ümummilli liderimiz Heydər Əliyevin adı ilə bağlıdır.

Muxtar respublikada dövlət qulluğunun səmərəli təşkili və idarə olunması məsələlərindən də danışan İsmayıl Qəribli vurğulayıb ki, vətəndaşların mərkəzləşdirilmiş qaydada dövlət qulluğuna qəbulunun müsabiqə və şəffaflıq əsasında həyata keçirilməsi üçün hərtərəfli şərait yaradılıb.

Sonra keçirilən imtahanlarda 98 bal toplayaraq Naxçıvan Muxtar Respublikasının Ağır Cinayətlər Məhkəməsində iclas katibi vəzifəsinə təyin olunan gənc dövlət qulluqçusu Təranə İsmayılova yaradılmış şəraitə və göstərilən qayğıya görə gənc dövlət qulluqçuları adından dövlətimizə minnətdarlığını bildirib.

Müsabiqəni uğurla başa vurmuş və dövlət orqanlarında işə başlamış namizədlər Azərbaycan Respublikasına sadiq olacaqlarına, onun Konstitusiyasına dönmədən əməl edəcəklərinə, dövlət sirrini və xidməti sirri qoruyacaqlarına, dövlət qulluğunun onlara verdiyi hüquqları və üzərlərinə qoyduğu vəzifələri qərəzsiz, vicdanla, yalnız qanunauyğun surətdə və dövlətin mənafeyi naminə həyata keçirəcəklərinə and içib, andın mətnini imzalayıblar.

Qeyd edək ki, andiçmə mərasimində karantin rejiminin tələblərinə ciddi əməl edilib.

Xatırladaq ki, müsabiqəyə 225 vakant vəzifə çıxarılmış, həmin vəzifələrin tutulması üçün 574 nəfər sənəd təqdim etmişdir. Müsabiqənin test imtahanları mərhələsində 557 namizəd iştirak etmiş, 269-u keçid balını toplaya bilmişdir. Müsahibə mərhələsində müvəffəqiyyət qazanmış 64 namizəd vakant vəzifələrə təyin olunmuşdur. Onlardan ilk dəfə dövlət qulluğuna qəbul edilmiş 59 nəfər andiçmə mərasimində iştirak edib, 20 nəfərdən ibarət qruplar şəklində and içiblər.

***Naxçıvan Muxtar Respublikası Ali Məclisinin Sədri yanında Dövlət Qulluğu Məsələləri üzrə Komissiyanın mətbuat xidməti***

## Ümumtəhsil məktəbləri 2019-2020-ci tədris ilini uğurla başa vurdu

***Muxtar respublikada bütün sahələrdə olduğu kimi, təhsil sahəsi də dövlət qayğısı ilə əhatə olunmuşdur. Naxçıvan Muxtar Respublikasında təhsilin inkişafına göstərilən diqqət və qayğı sayəsində Naxçıvan şəhər 5 nömrəli, Şərur rayon Muğanlı, Muğancıq-Mehrab, Yeni Havuş, Xələc kənd tam orta, Babək rayon Kültəpə kənd tam orta, Gülşənabad kənd ümumi orta, Ordubad rayon Vənənd, Şahbuz rayon Türkeş, Kəngərli rayon Böyükdüz kənd tam orta məktəblərinin yeni binaları istifadəyə verilmişdir.***



Tədris ili ərzində təhsilə dövlət qayğısı təkcə məktəb tikintisi ilə yekunlaşmamış, müəllim nüfuzunun artırılması, təhsil işçilərinin fəaliyyətinin stimullaşdırılması, sosial müdafiəsinin gücləndirilməsi də diqqətdə saxlanılmışdır. Azərbaycan Respublikası Prezidentinin və Naxçıvan Muxtar Respublikası Ali Məclisi Sədrinin sərəncamları ilə Azərbaycan təhsilinin inkişafında xidmətlərinə görə 5 müəllim “Azərbaycan Respublikasının Əməkdar müəllimi”, 6 müəllim “Naxçıvan Muxtar Respublikasının Əməkdar müəllimi” fəxri adlarına layiq görülmüş, 4 müəllim “Tərəqqi” medalı ilə təltif olunmuşdur.

2019-2020-ci tədris ilində Naxçıvan Muxtar Respublikası Təhsil Nazirliyi tərəfindən təhsil müəssisələrində tədrisin səviyyəsinin yüksəldilməsi, pedaqoji heyətin peşəkarlıq səviyyəsinin artırılması, peşə təhsilinin təşkili diqqətdə saxlanılmış, dərsliklərin müzakirəsi, şagirdlərin bilik səviyyəsinin öyrənilməsi və asudə vaxtlarının səmərəli təşkili, istedadlı şagirdlərin aşkarlanması, idmanın kütləviliyinin təmin edilməsi istiqamətində bir sıra işlər görülmüşdür.

Tədris ili ərzində müəllimlərin peşəkarlıq səviyyəsinin, müasir təlim üsullarının tətbiqi sahəsində bacarıqlarının artırılması məqsədilə ali təhsil müəssisələri ilə birgə elmi-praktik konfranslar, seminarlar və digər tədbirlər təşkil olunmuş, ali məktəblərin professor və müəllim heyətləri, həmçinin pedaqoji profilli ixtisaslarda təhsil alan sonuncu kurs tələbələrinin iştirakı ilə dərsliklərin müzakirəsi keçirilmişdir.

2019-2020-ci tədris ilində interaktiv və nümunəvi dərslərin keçilməsi diqqətdə saxlanılmış, muzeylərlə ümumtəhsil məktəbləri arasında 14, Azərbaycan Milli Elmlər Akademiyası Naxçıvan Bölməsi ilə 7, Naxçıvan Şahmat Mərkəzi ilə ümumtəhsil və Şahmat məktəbləri arasında 15 interaktiv dərs, eyni zamanda muxtar respublikada fəaliyyət göstərən elm, ali və orta ixtisas təhsili müəssisələrinin elmi dərəcəli müəllimləri tərəfindən 917 saat nümunəvi dərs keçilmişdir.

Tədris ili ərzində istedadlı şagirdlərin bilik və bacarıqlarının üzə çıxarılması, onların potensiallarının inkişafı istiqamətində bir sıra işlər görülmüş, olimpiada hərəkatı diqqətdə saxlanılmış, muxtar respublika və respublika fənn olimpiadaları, həmçinin beynəlxalq səviyyəli bilik yarışları keçirilmişdir.

Başa vurduğumuz tədris ili bir sıra yeniliklərlə yadda qalmışdır. Belə ki, ilk dəfə olaraq VII siniflərdə dərsdənkənar məşğələ hesabına “Naxçıvan tarixi”i tədris edilmiş, Heydər Əliyev Uşaq-Gənclər Yaradıcılıq Mərkəzində innovativ dərnəklər fəaliyyətə başlamış, Şərur Şəhər Fizika-Riyaziyyat Təmayüllü Liseydə Robotexnika və Mental-aritmetik dərnəklərinin, Şərur rayonunun məktəbdənkənar tərbiyə müəssisələrində isə innovativ dərnəklərin yaradılması istiqamətində təşkilati işlər yekunlaşmışdır. İstedadlı şagirdlərin əl işlərindən ibarət albom-kataloq nəşr edilmişdir. Ümumtəhsil məktəblərində kompüterlərin, elektron lövhələrin, şəbəkə qurğularının, digər elektron cihaz və avadanlıqların alınmasını, quraşdırılmasını, təmirini və onlara texniki xidmət göstərilməsini təmin etmək məqsədilə nazirliyin nəzdində “Texniki Servis Mərkəzi” Məhdud Məsuliyyətli Cəmiyyəti təsis edilmişdir.

Bu tədris ili ümumtəhsil məktəblərinin IX sinfini 3546, XI sinfini isə 2723 şagird bitirmişdir. XI sinif məzunlarından 2575-i, yəni 94,6 faizi ali və orta ixtisas müəssisələrinə qəbul üçün sənəd vermişdir. Həmçinin Təhsil Nazirliyinin tabeliyində fəaliyyət göstərən liseylərə qəbul aparılmışdır. Şərur Şəhər Fizika-Riyaziyyat Təmayüllü Liseyə qəbul üçün 352, Qızlar Liseyinə isə 230 şagird sənəd vermiş, iyunun 11-də Naxçıvan Qızlar Liseyinə, iyunun 12-də isə Şərur Şəhər Fizika-Riyaziyyat Təmayüllü Liseyə qəbul imtahanları keçirilmişdir.

Mövcud vəziyyətlə bağlı mart ayının əvvəlindən tədris prosesinin dayandırılmasına baxmayaraq, son 4 ay ərzində şagirdlərə gündəlik olaraq mövzular çatdırılmış, müəllimlərin peşəkarlıq səviyyəsinin yüksəldilməsi, ali təhsil müəssisələri ilə qarşılıqlı sıx əməkdaşlığın qurulması diqqətdə saxlanılmış, onlayn qaydada konfranslar və təlimlər davam etdirilmişdir. Muxtar respublikada bütün sahələri əhatə edən yüksək infrastrukturun, internetlə təmin olunmanın nəticəsidir ki, tədrisin dayanması şagirdlərin təhsil alması ilə yanaşı, onların bir sıra müsabiqələrə qoşulmasına maneə olmamış, istedadları ilə fərqlənən şagirdlərlə bir sıra işlər aparılmış, onlara öz istedadlarını nümayiş etdirmə imkanı yaradılmışdır. Belə ki, may ayında da şagirdlərin asudə vaxtlarını səmərəli keçirmək və bacarıqlarını inkişaf etdirmək, istedadlı şagirdləri aşkar etmək üçün müxtəlif müsabiqələr təşkil olunmuşdur.

Cari tədris ilinin yekunu ilə əlaqədar olaraq ümumtəhsil məktəblərində təhsil alanların illik qiymətlərinin və digər sənədlərin yazılması, buraxılış siniflərinin attestata yazılacaq fənlər üzrə dərs saatlarının müəyyənləşdirilməsi yekunlaşıb.

*İnanırıq ki, məktəblilərimiz ötən illərdə olduğu kimi, bu il də mövcud vəziyyətə görə yaranmış çətinliyə baxmayaraq, qəbul imtahanlarında yüksək nəticələr göstərəcək və hər zaman olduğu kimi, muxtar respublika məktəblərinin adlarını respublika üzrə ön sıralarda tutacaqlar.*

## Şərur Şəhər Fizika-Riyaziyyat Təmayüllü Liseyə qəbul imtahanı keçirilib



Muxtar respublikanın sürətli sosial-iqtisadi inkişafı, yeni sənaye və xidmət sahələrinin yaradılması, həmin sahələrdə müasir informasiya texnologiyalarının tətbiqi təhsil sahəsində, xüsusən də dəqiq elmlər sahəsində dərin bilik verilməsinə tələbatı artırır. Bununla əlaqədar muxtar respublikamızda dəqiq elmlər sahəsi üzrə kadrların hazırlanması diqqətdə saxlanılmış, təhsilə göstərilən hərtərəfli qayğının daha bir nümunəsi olaraq Naxçıvan Muxtar Respublikası Ali Məclisi Sədrinin 2015-ci il 14 aprel tarixli Sərəncamı ilə Şərur şəhərində Fizika-Riyaziyyat Təmayüllü Lisey yaradılmışdır. Yaradılan əlverişli tədris şəraitinin nəticəsidir ki, qəbulu müsabiqə yolu ilə aparılan liseydə təhsil almaq üçün müraciət edən şagirdlərin sayı hər il artmaqdadır.

2020-2021-ci tədris ili üzrə Fizika-Riyaziyyat Təmayüllü Liseyə qəbul imtahanı dünən Naxçıvan Muxtar Respublikası Təhsil Nazirliyinin təşkilatçılığı ilə Naxçıvan şəhər 5 nömrəli tam orta məktəbdə keçirilib. İmtahanda iştirak etmək üçün mayın 6-dan 29-dək aparılmış sənəd qəbulunda ümumtəhsil məktəblərinin VI sinfini bitirən 352 oğlan şagirdi qeydiyyatdan keçib.

Müsabiqədə şagirdlərə Azərbaycan dili fənni üzrə 20, riyaziyyat və fizika fənlərinin hər biri üzrə 25, ingilis dili fənni üzrə 15, coğrafiya tarix, biologiya fənlərinin hər birinə aid 5 sual olmaqla, ümumilikdə, 100 sual təqdim edilib. Sualları cavablandırmaq üçün 150 dəqiqə vaxt verilib. Test formatında keçirilən imtahanda muxtar respublika üzrə fəal iştirak edən və ən yüksək nəticə göstərən 60 şagird liseyə qəbul ediləcək. Qəbul olunan şagirdlər liseydə VII sinifdə təhsil alacaqlar.

Qeyd edək ki, imtahanın təşkili və gedişi zamanı karantin rejiminin qaydalarına ciddi əməl olunub.

***Naxçıvan Muxtar Respublikası Təhsil Nazirliyinin mətbuat xidməti***

Oxunması zəruri olan kitablar

# Türkçülük və millilik epopeyası

*Naxçıvan Muxtar Respublikası Ali Məclisi Sədrinin "Oxunması zəruri olan kitablar haqqında" 2017-ci il 28 avqust tarixli Sərəncamının imzalanmasından bizi ayıran zaman kəsiyində bu sərəncamla təsdiq edilən "Oxunması zəruri olan kitabların Siyahısı"na daxil olan əsərləri mütaliə etdikcə, bu bədii nümunələrə dəfələrlə müraciət zərurəti, mənəvi tələbat duyduqca, həmin əsərlərin tariximizi, mədəniyyətimizi və milli kimliyimizi gənc nəslə öyrətdiyini, onların həyat yollarının düzgün müəyyənləşdirilməsinə və dünyagörüşlərinin zənginləşdirilməsinə xidmət etdiyini aydın dərk edirik. Siyahıya daxil edilən əsərlərin milli və bəşəri ideyaların, vətəndaşlıq dəyərlərinin təbliği baxımından nə qədər həssaslıq və dəqiqliklə, müasir və klassik irsə kamil bələdçiliklə seçildiyinə bir daha əmin oluruq. Janr, üslub, mövzu rəngarəngliyi ilə seçilən bu qiymətli əsərlərdən biri də ata öyüdü, ana laylası şirinliyi ilə dillər əzbərinə çevrilən, türkçülük, millilik epopeyası olan "Kitabi-Dədə Qorqud" dastanıdır.*




"Kitabi-Dədə Qorqud" Azərbaycanın ana kitabı, ümumtürk mədəniyyət abidəsi, dünya mədəniyyət xəzinəsinin nadir inciləriindəndir. Ana südü kimi qanımıza, iliyimizə hopan bu dastan xalq təfəkkürünü, mənəviyyatını, tarixini əks etdirən qan yaddaşı, milli qürur mənbəyimizdir. Bu folklor nümunəmizin bütün Türk dünyasına məxsusluğunu, vətəninin Azərbaycan, sahibinin Azərbaycan xalqı, müstəqil Azərbaycan dövləti olduğunu vurğulayan ümummilli liderimiz demişdir: ***"Kitabi-Dədə Qorqud" dastanının fövqəladə əhəmiyyəti ondan ibarətdir ki, o, bizim tariximizin 1300 illik dövrünü həm əks etdirir, həm də bir daha təsdiq edir. O, tarixi köklərimizi dünyaya göstərir, oğuz, türk mənşəyimizi və zəngin tariximizi sübut edir. Bunlar bizim hamımız üçün, xalqımızın bu günü, gələcəyi üçün əhəmiyyətlidir".***

Ulu öndər, klassik və müasir ədəbi irsimizin kamil bilicisi Heydər Əliyevin 1997-ci il aprelin 20-də "Kitabi-Dədə Qorqud" dastanının 1300 illik yubileyi haqqında imzaladığı Fərmana əsasən yubileyin yüksək səviyyədə keçirilməsi milli-mənəvi irsin qorunması, yaşadılması və gələcək nəsillərə çatdırılması baxımından mühüm hadisə idi. YUNESKO-nun 1998-ci ili "Dədə Qorqud ili" elan etməsi, dastanın 1300 illiyinin belə bir nüfuzlu beynəlxalq təşkilat tərəfindən silsilə tədbirlərlə möhtəşəm şəkildə qeyd olunması necə qədim tarixə, zəngin folklor və etnoqrafiyaya, milli mənsubiyyətə malik olmamızın beynəlxalq müstəvidə təsdiqlənməsi demək idi. Ölkə başçısı cənab İlham Əliyevin "Kitabi-Dədə Qorqud"un alman dilində ilk tərcüməsi və nəşrinin 200 illiyinin qeyd edilməsi haqqında" 2015-ci il 20 fevral tarixli Sərəncamı ilə bu əlamətdar hadisənin müxtəlif tədbirlərlə qeyd olunması şifahi xalq ədəbiyyatımızın dünya folklorşünaslığında özünəməxsus yerini və dəyərini bir daha ortaya qoydu.

Dastanın "Oxunması zəruri olan kitabların Siyahısı"na daxil edilməsini şərtləndirən mühüm amillərdən biri də onun Naxçıvan ərazisində yaşayan Azərbaycan türkləri ilə sıx bağlılığı, Qorqudşünaslığın Naxçıvanşünaslıq elmi istiqamətinin mühüm və aparıcı qolunu təşkil etməsidir. Aparılan çoxsaylı elmi tədqiqatlar nəticəsində Naxçıvanın da Qorqudşünaslıq elmindəki müstəsna yeri və mahiyyəti ortaya qoyulmuş, dastanda Naxçıvanla bağlı adıçəkilən 50-dən çox toponimin, eyni zamanda 300-ə yaxın söz və ifadənin müəyyənləşdirilməsi bunu bir daha təsdiq etmişdir. Muxtar respublikamızda bu tədqiqatların araya-ərsəyə gəlməsinə göstərilən hərtərəfli dövlət qayğısı, ulu öndərin dastanın 1300 illik yubileyinin keçirilməsi ilə bağlı sərəncamına əsasən 1999-cu ildə qədim Oğuz yurdu olan diyarımızda, Naxçıvan şəhərində Dədə Qorqud parkı yaradılması, Dədə Qorqudun heykəlinin ucaldılması, Naxçıvan Muxtar Respublikası Ali Məclisi Sədrinin 2015-ci il 25 iyul tarixdə imzaladığı Sərəncamla "Kitabi-Dədə Qorqud"un alman dilində ilk tərcüməsi və nəşrinin 200 illiyinin diyarımızda da geniş qeyd edilməsi və nəhayət, dastanın yetişməkdə olan gəncliyə oxunması zəruri ədəbiyyat kimi tövsiyə olunması muxtar respublikada aparılan milli-mənəvi irsə varislik siyasətinin ideal nümunəsidir.

Dastanın həm müəllifi, düzüb-qoşanı və söyləyəni, həm də əsas qəhrəmanı, bütün hadisələrin canlı şahidi, iştirakçısı, "Oğuznamə"si ilə hər bir boya xitam verən Dədə Qorquddur. Folklorşünasların, qorqudşünasların bu obraz haqqındakı elmi qənaətlərini belə ümumiləşdirmək olar ki, Dədə Qorqud keçmişin şahidi və yaşadıcısı, dövrünü xarakterizə edən, gələcəyi görən, tərbiyələndirən övliya, müdrik el ağsaqqalı, ozandır. Dədə Qorqudun həyat-ölüm, yaradan-yaranış, yaxşı-pis, düz-yanlış, dost-düşmən, insan-dünya-təbiət barədə fəlsəfi görüşlərini əks etdirən "Müqəddimə" bu obraz haqqında çox şey deyir. Dədə Qorqud iti ağıla, güclü yaddaşa, müşahidə və təsviretmə qabiliyyətlərinə, şirin və axıcı təhkiyə dilinə malikdir. O, digər obrazların taleyində mühüm rol oynayır. Oğuz elində yeniyetmə gəncin qəhrəmanlığını Dədə Qorqud qiymətləndirir, şücaətinə uyğun ona ad verir ki, bu ad da o dövr üçün "xalq titulu" mahiyyəti, dəyəri daşıyırdı. Oğuz gənci məhz onun təqdimatına əsasən bəylik, taxt, vərəsə qazana bilir. "Oğuzun tamam bilicisi", el içində böyük nüfuz sahibi olan Dədə Qorqud "Oğuz qövminin müşkülünü həll edərdi". O, Dəli Qarcardan bacısı Banuçiçəyi Bamsı Beyrək üçün alır, hətta vəhşi Təpəgözlə belə, kəsim kəsə bilir. Dədə Qorqudun alqışı alqış, duası dua, qarğışı qarğışdır.

Qopuz ulu qüvvətə malik, ilham, ruh mənbəyi, müqəddəs simvolik obraz – milli mentalitetin, xalq təfəkkür və duyumunun, bədii fantaziyasının rəmzi kimi dastanda ən müxtəlif situasiyalarda öz ecazkar qüdrətini göstərir. Salur Qazan düşmən əsirliyində ölüm ayağında olanda, Qanturalı Sarı donlu Selcan xatun uğrunda Təkurun vəhşi heyvanları ilə döyüşəndə, Əgrəklə Səgrək qardaşları düşmən fitvası ilə üz-üzə gələndə, əsirlikdən qayıdan Bamsı Beyrək ozanlıq edərək özünü nişanlısına tanıdanda və sair.

"Bəkil oğlu İmran" boyunda isə Dədə Qorqud siyasi müşavir, məşvərətçi qismində çıxış edərək xərac verməkdən boyun qaçıran Gürcüstanın müstəqilləşmək istəyini, tezliklə hücumlar edəcəyini uzaqgörənliklə başa düşür, sərhədlərin qorunması, müdafiənin gücləndirilməsi ilə bağlı Bayandır xana dəyərli məsləhət verir. "...Nurani el ağsaqqalı və müdrik filosof keyfiyyətlərini daşıyan ozan". Dədə Qorqud hadisələrə aydın münasibətilə bugünkü oxucunun da əxlaq və mənəviyyatına nüfuz edərək onu milli ruhda tərbiyələndirə bilir, öz soy-kökünü unutmamağa çağırır. Bu obraz qeyri-adi xarakterik xüsusiyyətləri, xalq təfəkkürünü, ideyalarını, mənəviyyatını təcəssüm etdirməsi, milli kökə, tarixə bağlılığı ilə həmişəyaşardır: "Dədə Qorqud fəlsəfəsi arxaik olduğu qədər də müasirdir".

Dastandakı digər əsas obraz Oğuz dövlətinin başçısı, xanlar xanı Bayandır xandır. O, döyüş meydanlarında görünmür, əsasən, dövləti siyasi cəhətdən idarə edir, hərbi məclislər, yığıncaqlar çağırır, hərb və müdafiə məsələləri ilə bağlı yekun qərarlar qəbul edir. Oğuz bəyləri hərbi yürüşlər üçün ondan izin alırlar. Bayandır xan düzgün daxili siyasəti ilə tayfalararası birliyə, xarici siyasəti ilə dövləti yadelli işğalçılardan qorumağa nail olur. Onun Azərbaycan xalqının vahid şəkildə formalaşmasında, Oğuz dövlətinin qüdrətlənməsindəki rolu dastanda hətta padşah səviyyəsində qiymətləndirilir. Bayandır xanın dastanda ara-sıra görünməsi, sıradan bir qəhrəman kimi şəninə ayrıca boy həsr olunmaması onu xaqan, lider kimi fenomenallıq mərtəbəsinə yüksəldir.

Dastanın əsas qəhrəmanı, xanlar xanı Bayandır xanla digər bəylər, qəbilə başçıları ilə əlaqələndirici rol oynayan, onun göstərişlərinin icrasına rəhbərlik edən, hərb səhnələrindəki əsas sima Qazan xandır. Evinin yağmalandığı, oğlunun və özünün əsir alındığı səhnələrdə onun qəhrəmanlığı, Vətənə, anaya, ailəyə, silahdaşlarına münasibəti əks olunur. O, vətənpərvər, sədaqətli, yenilməz və məğrur, ideal bir qəhrəmandır. Əsirlikdə olarkən düşmənin "bizi ög, Oğuzı sındır" təklifi müqabilində həyatla ölüm arasında qaldıqda şərəfsiz yaşamaqdansa, ləyaqətli ölümü üstün tutması bu obrazın xarakterik xüsusiyyətlərini müəyyənləşdirir.

Qazan xan oğlu Uruzu hünərsiz hesab edərək sərkərdə kimi Oğuz dövlətinin gələcək taleyi ilə bağlı nigarançılıq keçirir. Oğlu Uruzun cavabına müsbət reaksiyası, onun cəsarətindən xoşlanması isə Qazan xanın despot deyil, demokratik düşüncəli olduğunu təsdiqləyir. Bu Oğuz sərkərdəsinin daxili aləminin bütünlükdə açılmasında "İç Oğuza Dış Oğuz asi olub Beyrək öldügi boy" adlı son boy – dayısı Aruzu öldürdüyü səhnə xüsusi əhəmiyyət kəsb edir. Lakin, təəssüf ki, bu, bəzən ədəbiyyatşünaslıqda "xəyanətlə öldürülmüş Bamsı Beyrəyin qanını almaq" kimi dar prizmadan təhlil olunur, "Oğuzun Oğuza əl qaldırması", "faciə", "arzuolunmaz hal" kimi qiymətləndirilir. Bunun faciəviliyi nə qədər reallıqdırsa, günahı birbaşa Qazan xanın ayağına yazmaq da bir o qədər ədalətsiz olar. Unutmaq olmaz ki, bu faciənin əsl səbəbkarı, asilik körpüsünü salan, Qazan xana arxadan zərbə vurub onu diz çökdürmək məqsədilə Oğuzun say-seçmə igidi, Qazan xanın arxası Bamsı Beyrəyi xaincəsinə öldürən Aruzdur. Əslində, Aruzun məğlubiyyəti, faciəsi elə Beyrəyi öldürdüyü səhnədə də açıq-aydın verilir. Aruza tərəf çıxan Dış Oğuz bəyləri çaşqınlıq içində donub, tutduqları amaldan peşman olub, əvvəldən şərtləşdikləri kimi Beyrəyi öldürməyə kömək etmirlər. Aruz meydanda təklənir və artıq məğlubdur. Qazan xan düşmən əsirliyində, həyatla ölüm arasında qaldığı zaman "kəndü əslim, kəndü kökim sınağım yoq!"– deyən, üzdönük və qorxaq zənn etdiyi oğlu Uruzu belə, bağışlamayıb cəzalandırmaq, qılıncla paralayıb, altı bölük edib altı yol ayrıcına atmaqla ibrət dərsi vermək qərarına gələn bir bəylərbəyi, başçıdır. Vahid Azərbaycan naminə Dış Oğuz qiyamını yatırmaq da məhz onun missiyası, tarixi reallıq, zərurət idi. Boyun sonunda Dış Oğuz bəyləri günahlarını dərk edib yenidən Qazan xana biət edir, Qazan xan isə aman diləyənə aman verib onların günahlarını bağışlayır. Beləliklə, Qazan xan lider, başçı kimi milli birliyə nail olur. Məsələyə bu cür yanaşsaq, bu faciədən sonra dastandakı "Dədəm Qorqud gəlib şadlıq çaldı" ənənəvi ibarənin təkrar olunması ilə bağlı paradoksa da aydınlıq gətirmiş olarıq. Bu, Oğuz elinin qardaş qanı bahasına da olsa, yenidən əldə olunmuş birliyinin, həmrəyliyinin şadyanalığıdır. Bu həm də ideyalılıq baxımından dastanın "kədərli final"la yox, nikbin ovqatla, gələcəyə inam ruhunda bitməsi deməkdir.

Vətəninə, elinə, sərkərdəsinə, silahdaşlarına, sevgilisinə sədaqət rəmzinə çevrilən Bamsı Beyrək, namus uğrunda qurban getməyə hazır olan Uruz, Qazan xan uğrunda fiziki qüvvəsi və iradəsi ilə sonadək vuruşan Qaraca Çoban, qardaşı uğrunda ölümə getməyə razı olan Səgrək, Oğuz elini Təpəgöz kimi bəladan xilas edən Basat, igidlikdə heç də onlardan geri qalmayan Qanturalı, Buğac, Bəkil və oğlu İmran, Dəli Dondar, Yeynək kimi digər obrazların timsalında Oğuz igidlərini, ümumilikdə, belə səciyyələndirmək olar: Ömürləri qanlı döyüş meydanında, müharibələrdə keçən Oğuz igidləri, əslində, sülhsevər, humanist insanlardır. Lakin yaşadıqları mühit və coğrafi şərait, Vətənin dürlü-dürlü sərvətləri, həmsərhəd ölkələrin aramsız işğalçı hücumları, üzdəniraq qonşuların xəyanətkar siyasəti onları Vətəni müdafiə uğrunda silaha sarılıb at üstündə, döyüş meydanında ömür sürməyə sövq edir. Qorxaqlıq, satqınlıq, düşmən qarşısından qaçmaq, məğlubiyyət Oğuz bahadırlarına yaddır. Oğuzlar öz düşmənlərinə qarşı mərdanə siyasət yeridir, onların üzərinə qəfildən hücum etmir, sərhədlərini pozmur, Vətən uğrunda yekdil mübarizə aparırlar. Onların "İgid basdığını kəsməz!" deyə qaçanı qovmayıb, aman deyəni öldürməmələri Azərbaycan xalqına, türkə məxsus ərənlik əlamətidir.

Dastandakı qadın obrazları orta əsrlərdə Azərbaycanda qadına cəmiyyətin bərabərhüquqlu üzvü kimi yüksək qiymət verildiyini bir daha təsdiqləyir. Dastanın əsas ideyalarından biri "Ana haqqı – Tanrı haqqı!"dır. Şöklü Məlik tərəfindən bütün var-dövləti talanan Qazan xan ailəsindən, övladından, hər şeyindən keçir, amma anasından keçmir. Dastandakı anaya, qadına müqəddəs varlıq kimi bu cür ali, həssas, aşiqanə münasibət xalqımızın əsrlər öncə nə qədər əsilzadə bir xalq olduğunu bir daha təsdiqləyir. Oğuz qadını özünün, ərinin, ailəsinin hüquqlarını, Vətənini müdafiə edən, ən çətin



məqamlarda döyüş meydanını kişilərlə bölüşüb onlara silahdaş, arxa olmağla düşmənə qan udduran, azad, mütilikdən uzaq biridir. Dastandakı baş qadın obrazı şifahi və yazılı ədəbiyyatımızdakı bütün qəhrəman, mübariz, məğrur Azərbaycan qadınlarının əcdadı, bu gün də milli qadın idealı zirvəsində dayanan Burla xatundur. O, at çapıb, qılınc oynadaraq hərb meydanına girir, baş kəsib, qan tökür. Vətəni müdafiədə oğuz ərlərindən heç də geri qalmır. Dastanın ən təsirli səhnələrindən biri düşmən əsirliyində Burla xatunun analıq, qadınlıq, vətənpərvərlik hisslərinin sınağa çəkilməsidir. "Namus, ismət, yoxsa oğlu Uruz?" dilemması qarşısında qalan Burla xatun, nəinki Qazan xanın, bütünlükdə, Oğuz elinin şərəf və ləyaqətini qoruyur, onu düşmən önündə alçaldıb rəzil etmir. Məhz Burla xatun kimi anaların böyüdüb boya-başa çatdırdığı Oğuz oğlu özünə ömür-gün yoldaşı seçəndə də bu etalonla yanaşır, dastanda deyildiyi kimi, özünə qardaş, arxadaş, silahdaş axtarır. İsmət, vəfa və sədaqət Banuçiçək, Selcan xatun, Dirsə xanın arvadı kimi qadınların zinətidir. Bu müsbət xarakterik keyfiyyətlər Oğuz qadınının heyrətamiz zahiri gözəlliklərini tamamlayır.

Dastanın başlıca ideyası – milli birlik təkcə döyüş səhnələrində deyil, zəfər şənliklərində, yığıncaqlarda, xeyir-şər mərasimlərində, qisas andı zamanı da özünü göstərir. Sonuncu boydakı milli faciə də məhz bu birliyin, bütövlüyün pozulmasının acı nəticəsi kimi ustalıqla verilir. Bu yekdillik obrazlara ayrı-ayrılıqda deyil, bütöv bir xalqın təmsilçisi kimi vəhdətdə yanaşmağı tələb edir.

Dastanda Azərbaycana həm qərb və cənubi-qərb, həm də şimal tərəfdən hücumlar, erməni və gürcü feodallarına, onların havadarları olan Bizansa, həmçinin gürcü hakimləri ilə ittifaqa girən qıpçaq türklərinə qarşı müdafiə geniş və qabarıq şəkildə əks olunmuşdur. Burada "qara donlu kafirlər"in türkləri birbirinə salışdırmaq, onları öz əlləri ilə məğlub etdirmək siyasəti də ustalıqla bədii inikas etdirilir. Dastanda "ip üzəngili, keçə börkli, azgun dinli, quzğun dinli kafir", "yedi min qaftanının ardı yırtıxlu, yarımından qara saçlu, sasi dinlü, din düşməni, alaca atlu kafir" adlandırılan düşmən obrazları namərd, qorxaq, şərəfsiz, hiyləgər, məkrli, özgə torpağına göz dikən təsvir olunur.

Bir sözlə, türk xalqlarının nadir dastanı olan "Kitabi-Dədə Qorqud"dakı obrazlar xeyrin şər, azadlığın əsarət, ədalətin haqsızlıq, sədaqətin xəyanət, mərdliyin namərdlik, sevginin nifrət üzərində qələbəsinin, azadlıq, milli birlik, qəhrəmanlıq ideyalarının tərənnümünə xidmət edir. "Dədə Qorqud" birliyə çağırış, vətənpərvərlik, müstəqillik dastanı olaraq bu gün də türk xalqları üçün önəmli öyüdnamə və ibrətnamədir.

*Bütün bunlar bir daha təsdiq edir ki, Naxçıvan Muxtar Respublikası Ali Məclisi Sədrinin təsdiq etdiyi siyahıda "Kitabi-Dədə Qorqud"un da yer alması müvafiq sərəncamın gənc nəslin dövlətçilik və vətənpərvərlik tərbiyəsinə, müstəqil dövlətçilik idealları üzərində kökləmiş kamil şəxsiyyət kimi formalaşmasına xidmət edir. Ulu öndərimiz Heydər Əliyevin dastanın tərbiyəvi əhəmiyyətindən bəhs edən aşağıdakı fikirləri də bunu bir daha təsdiq edir:* ***"Bizim zəngin tariximiz, qədim mədəniyyətimiz və milli-mənəvi dəyərlərimiz "Kitabi-Dədə Qorqud" eposunda öz əksini tapmışdır. Bu epos bizim ümumi sərvətimizdir və hər bir azərbaycanlı onunla haqlı olaraq fəxr edə bilər. Dastanın məzmununu, mənasını, onun hər kəlməsini hər bir azərbaycanlı məktəbdən başlayaraq bilməlidir. Bu, bizim ana kitabımızdır və gənclik bu kitabı nə qədər dərindən bilsə, millətini, xalqını, Vətənini, müstəqil Azərbaycanı bir o qədər sevəcəkdir".***

**Mehriban SULTAN**
*filologiya üzrə fəlsəfə doktoru*



# Oxucu məktubları



*Minnətdarlıq*

## Veteranlara dövlət qayğısı gənclərə vətənpərvərlik örnəyidir

***Hörmətli redaksiya!***

*Bu məktubu sizə ünvanlamaqda məqsədim muxtar respublikamızda müharibə iştirakçılarına, veteranlara göstərilən diqqət və qayğıya görə ürəyimdən keçənləri qədirbilən dövlətimizə çatdırmaqdır.*

Bildiyimiz kimi, 1990-cı ilin əvvəlləri xalqımız qanlı-qadalı dövrünü yaşayırdı. Mənfur düşmən doğma Naxçıvanımıza da göz dikmişdi. Vətənpərvər oğullarımız könüllü olaraq cəbhəyə yollanır,düşmənin torpağımıza yaxın düşməsinə imkan vermirdilər. Mən də bu torpağın oğlu kimi Vətənin o dar günündə rahat otura bilməzdim. Elə onun üçün də öz istəyimlə döyüşlərin getdiyi Şahbuz bölgəsinə yollandım. Düşmən güllələrinin ardı-arası kəsilmir, mərmi yağışından göz açmaq olmurdu. Lakin bu bizi qətiyyən qorxutmur, mübarizlik əzmimizi qıra bilmirdi. Çünki əmin idik ki, düşmənimiz havadarına arxalanır, özü isə qorxaq, ikiüzlü, riyakar, insanlıqdan uzaqdır. Şiddətli döyüşlər zamanı mənimlə bərabər, çiyin-çiyinə vuruşan neçə-neçə mərd oğullar yaralandı, şəhid oldu. 1994-cü ildə top mərmisinin partlaması nəticəsində mən də xəsarət aldım. Lakin döyüş meydanını tərk etmədim, mərd cəbhə yoldaşlarımla çiyin-çiyinə verərək düşməni geri oturtduq...



Hər dəfə şücaətlik, qəhrəmanlıq salnaməsi kimi tarixə düşən həmin dövrü xatırladıqca qürur hissi keçirirəm. Həm də ona görə fəxarət duyuram ki, dövlətimiz müstəqildir, biz veteranlara daim qayğı ilə yanaşılır, kiçikdən-böyüyə hər kəs öz ehtiramını əsirgəmir. 2006-cı ildən Prezident təqaüdünə layiq görülmüşəm, 3 övladımı böyüdüb iş-güc sahibi etdiyim üçün özümü xoşbəxt hiss edirəm.

Bildiyimiz kimi, hər il faşizm üzərində qələbənin ildönümü yüksək səviyyədə qeyd olunur, biz Azərbaycan Vətən Müharibəsi iştirakçıları da bu münasibətlə keçirilən müxtəlif tədbirlərdə iştirak edirik. Builki Qələbə Günü mənim üçün xüsusi əlamətdarlığı ilə yadda qaldı. Belə ki, mayın 9-da Ali Məclisin Sədri ilə görüşdük, bizə öz təbriklərini çatdırdı, mənə də "NAZ Lifan-330" markalı minik avtomobili hədiyyə olundu. Veteranlara dövlət qayğısı gənclərə vətənpərvərlik örnəyidir. Fürsətdən istifadə edib qəzetiniz vasitəsilə bir daha göstərilən bu qayğıya görə dövlətimizə dərin minnətdarlığımı bildirirəm. Arzum budur ki, bizə verilən bu avtomobillə işğal altında qalan torpaqlarımıza gedərək Böyük Qələbəmizi orada qeyd edək. İnanıram ki, dövlətimizin apardığı uğurlu siyasət nəticəsində həyat yolumuzu nurlandıran Günəşin hərarəti tezliklə ürəyimizdə buz bağlayan Qarabağ nisgilini də yox edəcək!

**Məhəmməd ALLAHVERDİYEV**
***Azərbaycan Vətən Müharibəsi iştirakçısı***

*Razılıq*

## Tarix onu yaşadanlarındır



***Hörmətli redaksiya!***

Tarixi abidələrimiz, çoxsaylı maddi mədəniyyət nümunələrimiz Azərbaycanın uzaq keçmişinin zənginliyini təsdiq etməklə yanaşı, eyni zamanda xalqımızın milli pasportu hesab edilir. Bu abidələr Azərbaycan xalqının minilliklər tarixini özündə yaşadan zəngin informasiya mənbəyi kimi xalqımızın bu torpaqların köklü sakinləri olduğunu danılmaz faktlarla sübuta yetirir. Sovetlər dönəmində bir çox tarixi abidələrimiz, o cümlədən məscidlər və hamamlar ögey münasibət görmüş, çoxu bilərəkdən xarabalığa çevrilmiş, xalqımızın milli mədəni irsi məhvə sürüklənmişdir.

Həmin illər uşaq olsam da, kəndimizdəki məscid və tarixi hamamın gündən-günə dağılmasını sakinlərin necə acı təəssüflə, ürək ağrısı ilə qarşılamaları bu gün də hafizəmdən silinməyib. Yetmiş illik müstəmləkəçilikdən azad olduqdan sonrakı illərdə də tarixi abidələrə münasibət dəyişməmişdi. Çünki müstəqilliyini yenicə qazanmış, dövlətimiz müharibə ilə üzləşmişdi.

"Çətin günün ömrü az olar", – deyib atalarımız. Qaranlıq gecələrimizin nurlu sabahı ulu öndərin Vətənə, hakimiyyətə qayıdışı ilə başladı. Tarixə və abidələrimizə qiymət verildi. Dahi rəhbərin davamçıları bu gün o işıqlı yolu uğurla davam etdirir. Diyarımızın hansı guşəsinə getsən, orada əvvəllər ürək yanğısı ilə baxdığımız, indi isə yeni növrağından qürur duyduğumuz abidələri görürük. Çox sevinirik ki, bu sehrli əllər bizim kəndimizdəki xarabalığa dönmüş hamama da dəydi və onu yüz illər öncəki görünüşünə qaytardı. Türk-islam mədəniyyəti abidələrinin gözəl nümunələrindən olan Şahtaxtı kəndindəki Şərq hamamına yeni həyat bəxş edilməsi muxtar respublikamızda tarixi abidələrə göstərilən böyük qayğının nəticəsidir. Burada xidmət sahələrinin yaradılması həm kənd sakinlərinin məşğulluğu baxımından əhəmiyyətlidir, həm də tarixi abidənin qorunub saxlanılmasına, təmizliyinə, abadlığına xidmət edəcək.

Bəli, tarix onu qoruyub yaşadanları öz səhifələrinə qızıl hərflərlə yazır. Bu gün qürur hissi ilə deyirik: tarixi yaşadanlar var olsun!

**Təranə İMRANOVA**
***Kəngərli rayonu***

## Alman dili ixtisası tələbələrinin gələcək iş təminatına da şərait yaradılıb



***Salam, hörmətli redaksiya!***

Hamımıza məlumdur ki, Naxçıvan Dövlət Universiteti muxtar respublikamızın hərtərəfli inkişafında böyük rolu olan ali təhsil müəssisəsidir. 2017-ci ildə 50 illik yubileyi dövlət səviyyəsində qeyd olunan universitet Naxçıvanda elmi-mədəni və intellektual potensialın formalaşmasına mühüm töhfələr verib, yetişdirdiyi kadrlarla cəmiyyətimizin inkişafını təmin edib. Son illərdə bu təhsil ocağı dünyanın onlarla sayılıb-seçilən ali təhsil müəssisəsi ilə uğurlu əməkdaşlıq əlaqələri yaradıb, qarşılıqlı olaraq tələbə mübadilələrinin fəal iştirakçısına çevrilib.

Ölkəmizin, eləcə də muxtar respublikamızın xarici əlaqələrinin genişlənməsi, eyni zamanda universitetdə aparıcı xarici dillərin tədrisini zəruri edib. Belə dillərdən biri də Alman dili müəllimliyi ixtisasıdır. Ötən müddət ərzində Alman dili ixtisasından onlarla tələbə məzun olub. Ancaq digər dillərlə müqayisədə bu sahə üzrə işlə təmin edilmək məhdud çərçivədə olduğundan ixtisas sahiblərinin bir çoxu başqa sahələrə üz tutmaq məcburiyyətində qalırdı. Şükürlər olsun ki, artıq muxtar respublikamızın bir sıra ümumtəhsil məktəblərində alman dilinin tədrisinə başlanılıb və bunun üçün 20 vakant yer də ayrılıb. Belə uğurlu addımın atılması biz müəllimlərlə bərabər, Alman dili ixtisası üzrə oxuyan tələbələri də sevindirir. Artıq bu dili ali səviyyədə mənimsəyən tələbələr bilirlər ki, onlar gələcəkdə muxtar respublikamızda öz ixtisaslarına uyğun işlə təmin ediləbiləcəklər. Həyata keçirilən bu tədbirlərə görə ixtisas müəllimləri və tələbələr adından dövlətimizə minnətdarlığımızı bildiririk.

**Kövsər ABBASOVA**
***Naxçıvan Dövlət Universitetinin Roman-german dilləri kafedrasının baş müəllimi***

***Hörmətli redaksiya,** bu məktubu yazmağı və qəzetiniz vasitəsilə belə gözəl şəraiti yaradanlara minnətdarlıq etməyi öz vətəndaşlıq borcum bildim.*

## Həkim münasibəti ən gözəl məlhəmdir

Gənc yaşlarımda keçirdiyim bir qəza nəticəsində sağlamlıq imkanlarım məhdudlaşdığı üçün xəstəxanaya tez-tez yolum düşür. Həmişə də həkimlərimizin, xüsusilə gənc səhiyyə işçilərinin qayğı və nəvazişi ilə rastlaşıram. Buna görə ürəyim dağa dönür. Yaxın günlərdə də yolum yenə respublika xəstəxanasına düşdü. Təcili yardım şöbəsində çalışan gənc həkim Pəri Əliyevanın savadına, səmimiyyətinə heyran oldum. İnsan taleyinin həll olunduğu çətin bir məqamda həm xəstənin vəziyyəti ilə bağlı insanları tibbi cəhətdən məlumatlandırdığını, həm yardıma ehtiyac duyan xəstələrə kömək etməyə çalışdığını izləmək, həm də bunu yorulub usanmadan, gülərüzlə etməsini görmək ürəyimi dağa döndərdi. Oradakı bütün tibb işçiləri xəstələrə öz doğmaları kimi davranırlar. Bu məni çox sevindirdi. Çünki dövləti təmsil edən, adını uca tutan şəxslər bütün xəstələrə fərq qoymadan eyni münasibət göstərirlər. Mən təmənnasız olaraq müayinə olundum. Belə şəfqət və qayğı ağrılarımı azaltdı.

Bu gün normal həyata qayıtmağım, özümü gümrah hiss etməyim məhz vicdanlı həkimlərimizin xidmətidir. Belə kadrları yetişdirən dövlətimiz var olsun. Tanrı bu gözəl günləri bizə bəxş edən dövlətimizi qorusun.

**Vaqif ABDULLAYEV**
***Babək rayon Çeşməbasar kəndi***

## Zəhmət adamları torpağa daha ürəkdən bağlanır

***Qədim diyarımızın zəhmətkeş insanlarına salam olsun!***



Əkin sahələrinin genişləndirilməsi üçün təsərrüfat suyuna olan tələbatın ödənilməsi, qapalı suvarma şəbəkələrinin qurulması, torpaq mülkiyyətçilərinə, fermer və təsərrüfat sahiblərinə güzəştli şərtlərlə kredit, texnika və avadanlıqların verilməsi onları doğma torpağa daha ürəkdən bağlayıb, əkinçiliyə olan maraqlarını artırıb. Ailə təsərrüfatları yaratmaq, sahibkarlıqla məşğul olmaq üçün dövlət dəstəyi də yetərincədir. Yaradılan şərait insanları daha çox həvəslə işləməyə və gəlir əldə etməyə həvəsləndirir.

Uzun illərdir ki, əkinçiliklə məşğulam. Bu il də taxıl əkmişəm. Adətən, taxılı biçəndən sonra küləş bağlamaq üçün kiməsə üz tutmalı olurdum."Naxçıvan Aqrolizinq" Açıq Səhmdar Cəmiyyəti tərəfindən muxtar respublikaya müasir kənd təsərrüfatı texnikası və texnoloji avadanlıqların gətirildiyini eşitmişdim. Həm öz sahəmdə küləş bağlamaq, həm də kənddəki əkinçilərə kömək etmək üçün yaxın günlərdə mən də bu imkandan yararlanıb küləş bağlayan aqreqat aldım. Güzəştli şərtlərlə verilən texnika işimizi daha da asanlaşdıracaq.

Belə bir el məsəli var: torpaqda izin olsun ki, süfrədə üzün olsun. Çünki torpaq adamı naümid buraxmaz. Biz zəhmət adamları da dövlətimizin yaratdığı bu şəraitdən istifadə edərək öz güzəranımızı qurmaqla yanaşı, dükan-bazarlarımızı dadına və keyfiyyətinə görə əvəzi olmayan yerli kənd təsərrüfatı məhsulları ilə təmin etməyə də çalışmalıyıq.

**Cəlil MƏMMƏDOV**
***Sədərək rayon Sədərək kənd sakini***

## Kort tennisi üzrə birincilik keçirilib

*Naxçıvan Muxtar Respublikası Gənclər və İdman Nazirliyinin təşkilatçılığı ilə Sahil Parkında ilk dəfə olaraq kort tennisi üzrə gənc oğlan və qızlar arasında muxtar respublika birinciliyi keçirilib.*

Gənclər və İdman Nazirliyinin Kütləvi bədən tərbiyəsi və idman şöbəsinin müdiri Taleh İbrahimov birinciliyin açılış mərasimində çıxış edərək yarışın qaydaları haqqında məlumat verib və idmançılara uğurlar arzulayıb.



Birincilikdə 20-yə yaxın gənc oğlan və qız olimpiya sistemi üzrə mübarizə aparıb.

Qızların yarışında Aynur Məmmədova bütün rəqiblərini üstələyərək birinciliyin qalibi adını qazanıb. Digər iki pillədə Göyərçin Məmmədova və İlkanə Əliyeva qərarlaşıblar.

Oğlanlar arasında mübarizə isə daha kəskin olub. Bütün rəqiblərinə qalib gələn Kement Muhammed Ali yarışın baş mükafatını qazanıb. Orhan Qurbani ikinci, Əkrəm Rəhimli isə üçüncü olub.

Sonda qalib idmançılar diplom və hədiyyələrlə mükafatlandırılıblar.

**✍ Ceyhun MƏMMƏDOV**

### İtmişdir

Şərur rayonu, Çomaxtur kəndində yaşamış Quliyeva Ceyran Fərman qızının adına olan JN-327 inventar nömrəli, 10200018 kodlu torpağa mülkiyyət hüququna dair dövlət aktı itdiyindən etibarsız sayılır.

***

Şərur rayonu, Çəmənli kəndində yaşamış Məmmədov Ərəstun Nəbi oğlunun adına olan JN-0092 inventar nömrəli, 10205048 kodlu torpağa mülkiyyət hüququna dair dövlət aktı itdiyindən etibarsız sayılır.

ŞƏRQ qapısı
Baş redaktor:
MEHRİBAN SULTANOVA

Ünvan: AZ-7000,
Naxçıvan şəhəri, "Təbriz" küçəsi 1.
Telefonlar: Məsul katib: 545-62-47
Şöbələr: 545-81-44, 545-51-18
Müxbirlər: 545-75-21, Faks: 544-52-52
E-mail: serqqapisi@nakhchivan.az

Qeydiyyat №: 575
Əlyazmalara cavab verilmir və onlar geri qaytarılmır

Nömrəyə məsul: Pərviz Hacılı
Qəzet redaksiyanın kompüter mərkəzində yığılıb, səhifələnib və Əcəmi NPB-də ofset üsulu ilə çap olunmuşdur.
Tiraj: 1500. Sifariş № 437